*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2025*
*Səh. 384-390*

# ƏDƏBİYYATŞÜNASLIQ

https://doi.org/10.62837/2025.5.384

*Böyük elmi işçi* **BAĞIROVA ELMİRA**
*elmirabagirova1949@gmail.com*
***AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Cənubi Azərbaycan ədəbiyyatı şöbəsi***

## BAYRAMƏLİ ABBASZADƏNİN (Hammal) satiraları

**Açar sözlər:** Cənubi Azərbaycan, şair, satira, poeziya, vətən
**Ключевые слова:** Южный Азербайджан, поэт, сатира, поэзия, родина
**Keywords:** South Azerbaijan, poet, satire, poetry, homeland

Bayraməli Abbaszadə (Hammal) Azərbaycan ədəbiyyatının çox maraqlı simalarından biri olmuşdur.

O, xalqın içərisindən çıxan, bütün həyatını öz xalqının azadlığı uğrunda mübarizəyə həsr edən həqiqi vətəndaş idi.

1859-cu ildə Cənubi Azərbaycanın Sərab mahalının Dünni kəndində dünyaya göz açan Bayraməli yazıb-oxumağı öz kəndlərində olan molla məktəbində öyrənmişdi. Şeir yazmaq həvəsi isə onda lap erkən yaşlarından oyanmış, beləliklə də o, “Mirzə Gülxar” ləqəbi ilə satirik mövzuda şeirlər yazmağa başlamışdır. Lakin bu şeirlərin çoxu itib-batdığı üçün bizlərə gəlib çatmamışdır. Şairin o zaman yazdığı əsərlər heç yerdə çap edilməmiş, dildən-dilə keçərək, kütlələr içərisində sevilə-sevilə oxunmuşsa da, onların yazılı nüsxəsi qalmamışdır. Amma məlumdur ki, bu əsərlər əsasən meyxana, bədyə və həcvlərdən ibarət olmuş və əlbəttə, yerli mülkədarları, xanları, bəyləri, mollaları tənqid edirdi. Elə buna görə də Bayraməlinin acı həqiqətlə dolu həcvlərindən qəzəblənən irticaçı bəylər, ruhanilər onun evini qarət etdirirmiş, uçurdurmuş və özünü didərgin halda çöllərə salırmışlar. Lakin Bayraməli əzmindən dönməmiş, yerli istismarçılara və yadelli işğalçılara qarşı mübarizəyə qalxmış, hətta Cənubi Azərbaycanda Məşrutə inqilabı başlayan kimi fədai dəstələrinə qoşulub ən sədaqətli və igid əsgərlərdən biri olmuşdur. Yaralandıqdan sonra da kəndə qayıdıb özünə təsərrüfat, güzəran quran Bayraməli haqsızlıqlara, işgəncələrə, təhqirlərə dözə bilməmiş, nəhayət ki, doğma el-obasını tərk edib Şimali Azərbaycana üz tutmağa məcbur olmuşdur. Bir parça çörək pulu əldə etmək üçün qürbətə gedən şair ilk vaxtlar Bakıda “Merkuri” körpüsü adlanan yerdə hamballıq etməklə güzəranını keçirir, həm də doğma evində, yurdunda qalmış arvad-uşağını saxlamaq üçün hər hansı bir işi görməklə onlara da köməklik edir.

Lakin şeirə və ədəbiyyata həvəs və marağı, məhəbbəti onu rahat buraxmırdı. Bayraməli xalqın böyük şairi M.Ə.Sabiri çox sevirdi. Bakıya gəldikdən sonra onunla tanış olmaq istəyirdi.

Nəhayət, M.Ə.Sabirlə görüşə bilir, tanış olur və bundan məmnun qalan Bayraməli Sabir satiralarının təsiri ilə şeirlər yazmağa başlayır. Onun məsləhətlərini dinləyir və şairin yardımı ilə mətbuat orqanlarında, qəzet və məcmuələrdə şeirlər çap etdirir.

M.Ə.Sabir də şairlik qabiliyyətini, istedadını görərək onu həvəsləndirir, hətta şeirlərini "Hammal" təxəllüsü ilə yazmağı məsləhət görür. Bayraməli Abbaszadə Bakıda bir çox satirik jurnallarda, o cümlədən "Molla Nəsrəddin" jurnalında şeirlər dərc etməyə başlayır. Xalqının və özünün şəxsi dərdlərini ürək yanğısıyla qələmə alan Hammal satira dili ilə, çox vaxt da ciddiliklə ürəyindəkiləri misralara çevirərək xalqa çatdırırdı. Şimali Azərbaycanda yaşasa da İran mövzusu onun əsərlərində demək olar ki, mühüm yer tutur, bu da təbii idi. Öz taleyini doğma yurdunun, doğulduğu, boya-başa çatdığı, el-obasının taleyindən ayrı düşünmürdü. Şeirlərində İran kəndlisinin ağır və keşməkeşli həyatını, arzu və istəklərini içindən gələn bir yanğı ilə qələmə alır, ədalətsizliyə, qəbahətlərə həm gülür, həm də ağlayırdı.

B.Abbaszadə Hammal böyük tarixi hadisələrlə dolu bir dövrdə yaşayıb-yaratmışdır. Onun əsərlərində Cənubi Azərbaycan xalqının kədər və ələmləri, azadlıq mübarizəsində verdiyi qurbanları, gündəlik həyatında rast gəldiyi çətinlikləri və müvəffəqiyyətsizlikləri, azadlıq həsrəti tərənnüm olunur.

O, yaradıcılığının çiçəkləndiyi dövründə doğma elindən, yurdundan uzaqlarda yaşasa da, həmişə ana vətəni – Cənubi Azərbaycanla ruhən bağlı olmuş, ictimai-siyasi təşkilatların işlərində fəal iştirak etmişdir. Mətbuatda çıxan şeirlərinin demək olar ki, hamısının mövzusunu Cənubdan almışdır. Bir vətəndaş kimi, sənətkar kimi, əsərlərinin əksəriyyətini də Cənuba həsr etmişdir, bu da başa düşüləndir. Hammalı həmişə Cənubi Azərbaycanın taleyi narahat edirdi, oradakı insanların dərdini öz dərdi kimi qəbul edirdi. "Yurdum İran" şeirinə nəzər salaq:

Özüm kamil bir insan, yurdum İran,
Əqidəm şiə, dindar bir müsəlman.
və ya
Qafqazlıların dillərinin əzbəriyik biz,
İranlıyıq, avarə qalan həmşəriyik biz.

Onun "İran haqqında", "İranlıların", "İranlı olmasaydı", "Doğrusu", "Becəhənnəm", "Olacaq, olmayacaq" kimi əsərləri axıcılığı ilə, rəvanlığı ilə diqqəti cəlb edir və söylədiklərimizə bir sübutdur:

**Becəhənnəm**
Viran ola gər gişvəri-İran, becəhənnəm,
Pamalı-cəhalət ola hər an, becəhənnəm,
Yaxşı gəzibən, keyf çəkəm Sonyalar ilə,

Göz yaşlı qala evdə Tükəzban, becəhənnəm,
Elm ilə qabaq getsə əgər cümlə yaranmış,
Qeyrət nə gərək qeyrətü-vicdan, becəhənnəm,
İtsə adımız millət ara, söylə nə eybi,
Məhv olsa əgər dini-müsəlman, becəhənnəm.

Hammalın xalqımızın böyük şairi M.Ə.Sabirə nəzirə olaraq yazdığı "Yanğılı vulkan da var", "Əşhədübillahül...", Əli Nəzmiyə nəzirə olaraq yazdığı "Əmu", "Əhməd Şahın İrana teleqrafı", "Şahənşahın konsulu" şeirləri də ahəng və məzmunu ilə diqqətə layiqdir:

**Sabirə nəzirə**

Əşhədübillahül - əliyyul-əzim,
Milləti-iranam, a iranlılar,
Mən də sizin tək gəzirəm çölləri,
Sahibi-palanam, a iranlılar.

Şeyx Həsən nitq deyib, anladım,
Yazmış idim, sonra peşimanladım,
Fikr eləyib, öz-özümü danladım,
İndi peşimanam, a iranlılar,
Sahibi palanam, a iranlılar.

Hammal diplom sahibi deyildi, lakin o acı bir həyat dərsi keçmişdi.

Yüksək savadı və mütaliə dairəsi geniş olmasa da, on min misraya yaxın şeir yazmış, Bakıda çıxan müxtəlif məcmuə və jurnallarda yaxından iştirak etmiş bu talesiz şair bədii cəhətdən zəif olsa da mövzu cəhətdən maraqlı əsərlər yaratmışdır, habelə, yeni həyatı tərənnüm edən şeirlər və köhnəlik qalıqlarını qamçılayan mənzum felyetonlar, satiralar yazmışdır.

B.Abbaszadə mənzumə və ciddi şeirlərində bir məqsədə, bir amala xidmət edirdi ki, bu da xalqın tərəqqisi, səadəti yolunda qələmilə çalışmaqdan ibarətdir.

Hammal Azərbaycan poeziyasına, ədəbiyyatına xeyli töhfələr vermişdir. "Molla Nəsrəddin", Sabir, Möcüz yaradıcılığından bəhrələnən sənətkar elə bu ruhda da şeirlər, satiralar yazmışdır. Ədalətsizliyi, ictimai quruluşu, şah istibdadını, cəhalət və mövhumatı tənqid edən, xalqın ağır güzəranından, zəhmət adamlarının acı taleyindən bəhs edən mənzum felyetonlar qələmə almışdır. Onun şeirləri "Zənbur", "Molla Nəsrəddin" kimi ruznamə və jurnallarda dərc olunmuşdur. "Fəryadi məzlumanə", "Məşrutə", "Süpehdar", "İrana dair", "Yurdum İran", "Məqsəd nədir?", "Gözün aydın", "İslamda elm", "İran" kimi şeirlərində geriliyi, ətaləti ifşa

etmişdir. Sovet dövründə qəzet redaksiyasında işlədiyi zamanlar yeni həyatı tərənnüm edən şeirlər – “Yeni yol”, “Maarifə doğru”, “Şərqin səadəti” və s. köhnəlik qalıqlarını qamçılayan mənzum felyetonlar da yazmışdır. “Hammal” imzası ilə yazıb-yaradan sənətkar həqiqətən də bir tikə çörək qazanmaq, ailəsini saxlamaq üçün hamballıq edirdi. Həm də məcazi mənada özü kimi neçə-neçə zəhmətkeş insanın qəm yükünü öz üzərinə götürmüşdü. Satiralarında elin dərdini, qəm-qüssəsini ağlaya-ağlaya, eyni zamanda da güldürməklə xalqa çatdırmağa məcbur idi. Şeirlərini oxuyan insanlar onun dərdinə şərik olurdular, onu sevirdilər. Beləcə şeirləri ilə qəlbləri sevindirən şair nəhayət ki, hamballığı qələmi ilə əvəz edərək redaktor vəzifəsinə qədər yüksəldi, müxtəlif ədəbi görüşlərin, şeir məclislərinin daimi iştirakçılarından oldu. Hamballığı tərk etsə də zəhmətkeşlik timsalı olan ləqəbindən vaz keçmədi, keçmişini unutmadı. Şeirlərini bu ləqəblə, bu imza ilə yazdı, “Yeni fikir”, “Kəndli qəzeti, “Yeni yol” kimi qəzet və jurnallarda çap etdirdi.

**“Yeni yol”**

“Yeni yol” gör necə tufan elədi,
“Yeni yol” bir böyük üsyan elədi,
“Yeni yol” vəhşəti giryan elədi
Eylədi ədl ilə divan “Yeni yol”,
Yaşasın dərdlərə dərman “Yeni yol”.
“Yeni yol” bir yenilik bəxş edəcək,
“Yeni yol” xəlqə maarif verəcək,
“Yeni yol” cümləni şad eyləyəcək.
Yaşasın xaneyi-ürfan “Yeni yol”,
Yaşasın dərdlərə dərman “Yeni yol”.

İran mövzusu Hammalın yaradıcılığında xüsusi yer tutmuşdur. Qeyd etdiyimiz kimi satiralarında xalqın gözünü pərdələmək istəyən şah siyasətinin iç üzünü açaraq oxucuya göstərmişdir. “Şahənşahın konsulu”, “Parisdən Tehrana” adlı satirik şeirlərində bu aydın nəzərə çarpır:

İrzaxan, sən məşədi, mən hacıyam,
Sən elin qamçısı, mən qırmacıyam.
Sən bir az çəp yürüyən,
Mən də bir az, qıyqacıyam.
İkimiz bir ağacın meyvəsiyik,
Nədəndir sən şirinsən, mən acıyam?
Gəl bir az əyri otur, düz danışaq,
Şah sən ol, ya mən olum, varmı maraq?
Söz gedir taxt ilə tac üstə qoçaq.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2025*
*Səh. 384-390*

Sən bu taxtın toxusan, mən acıyam.
İkimiz bir ağacın meyvəsiyik,
Nədəndir sən şirinsən, mən acıyam?

Qəzəb hissi, nifrət hissi bu misralarda mollanəsrəddinçi şairlərə məxsus olan satirik üslubda verilmişdir.

Vətəninə, xalqına biganə qalanlara, soyuqqanlı olanlara təəccüblənir, onları satira süngüsü ilə tənqid edir, qamçılayırdı. O, doğulduğu torpağının, el-obasının vurğunu idi, oranı tərk edib şimala gəlsə də inanmaq olmur ki, doğma torpağından ayrı yaşayır, çünki oradakı həyatı doğru, real təsvir edirdi, vətəninin gözəlliklərini sevə-sevə tərənnüm edirdi. Nə vaxtsa xoşbəxt və azad həyatın gələcəyinə inanırdı.

Satiralarında həzinlik, lirika duyulsa da, ictimai motivlər, vətənpərvərlik hissləri, təəssüf və kədər də özünü göstərir. Həyəcanla, heyrətlə sanki oxucuya xitab edir:

Müntəzirdir gözüm İranda qalan yoldaşıma,
Töküb İranın o xanzadələri kül başıma,
Deyən olmazdı mənə ey qoca pabəstə kişi!
On iki put tayın altında olan xəstə kişi!
Həsrətəm bir neçə müddətdi bacı, qardaşıma!
Özüm ölsəm də yazın bu sözümü baş daşıma,
Töküb İranın o xanzadələri kül başıma.

Bəzən ifadə və təsvir vasitələrinin seçilməsi, məcazi mənada sözlərin işlədilməsi kimi incəliklərə əhəmiyyət verməsə də, bu başa düşüləndir.

Bədii cəhətdən səthi görünsə də, əksər hallarda fikir dolğunluğu həmin çatışmazlıqları kölgədə qoyur.

Hammalın təbəssüm yaradan satiraları da çox maraqlıdır. Avam ananın doğma qızına nəsihət dolu “Qız və anası” satirik şeiri də bu qəbildəndir. Məişət mövzusunda olan bu şeir qadının çarəsizliyini, mütiliyini oxucunun nəzərinə çatdırır. Ərindən şiddət görən, möhnət, qəm-qüssə içərisində yaşayan, dərd-bəla başından əskik olmayan, bir söz deməmiş kötək yeyən qızın anasına şikayətini dinlədikcə qadınların nə qədər hüquqsuz olduğunu görürük. Qızı dərdini anasına danışaraq, ondan kömək, imdad istədiyi halda ananın ona cavabı bu olur ki, hər cəfaya, zillətə dözmək, dillənməmək, tabe olmaq lazımdır. Çünki özü belə görmüş, həyatını belə yaşamış, övladına da özü kimi tərbiyə verib böyütmüşdür. Bu satirada şair acı gülüşlə qadınların qara taleyini, adi bir əşyadan fərqlənmədiyini ürək yanğısıyla misralara çevirərək, gözəl və işıqlı günlərin çox da uzaqda olmadığına inanırdı:

Ər döyüb öldürür məni, rəhm et, amandır, ay ana!
Bu başı batmış ər deyil, əfi ilandır, ay ana!

Dinmə, danışma, səbr elə cövrü-cəfayə, ay qızım!
Gəlsə nə qədər tab qıl, dərd-bəlaya, ay qızım!

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2025*
*Səh.384-390*

Möhnətü, dərdü, qüssə, qəm, qəddimi eyləmiş kaman,
Kaş ki, öləydim, ay ana, mən ərə getdiyim zaman.
Rəsmdir, ər döyər, söyər ay bala, daim övrəti,
Qol-qıçını vurar, əzər edər ona əziyyəti.
Gah çulunu yamatdırır, gah mənə yapdırır çörək,
Ruzi-şəb işlədir məni, gündə mənə çəkir kötək.
Tab elə həm cəfayə sən, cövrü cəfadən incimə,
Gəlsə nə qədrü başına, dərdü bəladən incimə!

Hammal şeirindəki həyat həqiqəti ilə yanaşı şirinlik, duzluluq, xəlqilik, canlı müsahibə xarakteri sənətkarlıq nümunəsi kimi nəzəri cəlb edir.

XX əsrin əvvəllərində yazıb-yaradan satirik şairlər nəzirələrdən də çox zaman ədəbi vasitə kimi istifadə edirdilər. Bu hər şeydən əvvəl onların əqidə, məqsəd birliyindən irəli gəlir, bir-birinin fikrini, amalını qüvvətləndirir, tənqid hədəfinə daha öldürücü zərbələr endirmiş olurdu. Hammalın böyük xalq şairi Sabirə yazdığı "Yanğılı vulkan da var" və "Sabirə nəzirə" şeirləri də bu xarakterdədir. "Əmu", "Əhməd şahın İrana teleqrafı" əsərləri də Əli Nəzmiyə nəzirə kimi yazılmışdır və demək olar ki, eyni ahəng, eyni vəzn, eyni üslub və məzmunda bunu görmək mümkündür. Lakin bu səciyyəli nəzirələr şairin yaradıcılığında o qədər də çox deyildir. Ürəyində Vətən sevgisi, el dərdi qövr edən mübariz şair Hammalın keçdiyi çətin, iztirablı həyatı onun yaradıcılığında, sadə və mənalı misralarında öz əksini tapmışdır.

O, 1926-cı ildə Bakıda vəfat etmişdir. Hammal öz dövründə həm Cənubi, həm də Şimali Azərbaycanda geniş zəhmətkeş kütlələri tərəfindən sevilən, doğma yurd-yuvasının həsrəti ilə yaşayan bir şair olmuşdur. Onun anadan olmasının 100 illiyi Bakıda qeyd olunmuşdur. Azərbaycanın görkəmli qələm ustalarının iştirak etdiyi həmin gecə şairə olan hörmət və ehtiramın təzahürüdür. Bakıda yaşadığı dövrdə Hammal bir sənətkar olaraq qiymətləndirilmiş, həmkarları tərəfindən rəğbətlə qarşılanmışdır. O vaxtlar yenicə təşkil edilmiş "Qızıl qələmlər" cəmiyyətinin üzvü olmuşdur.

Şərqə hürriyyət doğarsa, məncə zəhmətdən doğar,
Şənü-şövkət birlik etməkdən, həmimiyyətdən doğar,
Əldə al bayraq, dodaqda, dildə hürriyyət sözü,
Nail olmaq məqsədə, əlbəttə, qeyrətdən doğar.

Şairin ürəkdən söylədiyi bu misraları xalqı işıqlı gələcəyə, mübarizəyə ruhlandıran bir çağırışdır.

## İstifadə olunmuş ədəbiyyat:

1.Bayraməli Abbaszadə (Hammal). Seçilmiş əsərləri: (toplayanı İrkab Rzayev). Bakı, Azərnəşr, 1948. 102.s.
2. Bayraməli Abbaszadə (Hammal). Seçilmiş şeirlər. B.,Azərnəşr, 1964, 123.s.
3. XX əsr Azərbaycan ədəbiyyatı tarixi. B., "Maarif", 1982, 426.s.
4. Məmmədli Qulam. Hammalın xəzinəsi. "Kirpi" jurnalı, B., 1970, N 22.
5. Cənubi Azərbaycan şairləri. B., "Uşaqgəncnəşr", 1950, 72.s.
6. Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. II cild, B., "Elm", 1988, 580.s.
7. Xəndan C.Ədəbiyyatımızın dünəni və bu günü. Bakı, "Yazıçı", 1980, 245.s.

**Багирова Эльмира**

**Сатиры Байрамали Аббасзаде (Хамбал)**

Байрамали Аббасзаде (Хамбал) жил и творил в эпоху, полную великих исторических событий. Его произведения воспевают печали и боли народа Южного Азербайджана, его жертвы в борьбе за свободу, трудности и неудачи, с которыми он сталкивался в своей повседневной жизни, и его тоску по свободе.

**Bagirova Elmira**

**Satires of Bayramali Abbaszadeh (Hambal)**

Bayramali Abbaszadeh (Hambal) lived and created in a period full of great historical events. His works glorify the sorrows and pains of the people of South Azerbaijan, their sacrifices in the struggle for freedom, the difficulties and failures they encountered in their daily lives, and their longing for freedom.

**Rəyçi: filalogiya üzrə fəlsəfə doktoru, dosent. Mehdibəyova Mahmizər**